**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYTƏN ƏLƏSGƏR qızı QULİYEVA**

# ŞƏXSİ ARXİVLƏRDƏ ƏDƏBİ EPİSTOLYAR İRS

**5716.01 –** Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nailə Əbdül qızı Səmədova,**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Zaman Şükür oğlu Əsgərli,**
filologiya üzrə elmlər doktoru,
professor

**Təyyar Salam oğlu Cavadov,**
filologiya üzrə elmlər doktoru,
professor

**Aparıcı müəssisə:** **Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrası**

Müdafiə "____"___________ 2017-ci il saat ____-da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131– Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" "___________" 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya**

**Şurasının Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
**filologiya üzrə fəlsəfə doktoru**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yu[illegible]ən götürülmüş “epistola” sözü məktub, mesaj, yazışma mənası daşıyır. Ədəbiyyat tarixini, şair və yazıçıların həyatını, ədəbi fəaliyyətini ətraflı şəkildə öyrənmək, bir sıra mübahisəli məsələlərə aydınlıq gətirmək üçün sənətkarların epistolyar irsinin araşdırılması vacibdir. Təsadüfi deyildir ki, bu gün söz ustadlarının epistolyar irsinin də tədqiqinə böyük diqqət yetirilir.

Ədəbiyyat tariximizdə epistolyar janra müraciət qədim dövrlərdən başlamışdır. XII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xaqani Şirvaninin 60 ədəd nəsrlə yazdığı məktubu günümüzə qədər çatmış epistolyar irsin ən kamil nümunələrindəndir. Orta əsrlər, XIX və XX yüzilliklər, hətta müasir dövr Azərbaycan ədəbiyyatında bu janrın qiymətli nümunələri yaranmışdır.

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının özünəməxsus zənginliyi, ideya-estetik məziyyətləri ilə fərqlənən orijinal mərhələsidir. XIX yüzilliyin əvvəllərində ölkənin bir hissəsinin rus, bir hissəsinin isə İran qoşunları tərəfindən işğalı, siyasi-ictimai, sosial-iqtisadi həyatda baş verən dəyişikliklər, yeni yaranan idarəetmə üsulu cəmiyyətin məişəti ilə yanaşı, ədəbi-estetik düşüncəsinə də təsirsiz ötüşməmişdir. Belə ki, ədəbiyyatımızda çoxəsrlik ənənələri olan klassik ədəbi formalar – qəzəl, qəsidə, müxəmməs və s. məzmunca dəyişir, daha çox ictimai-siyasi pafos alırdı. Ziyalılar yaradıcılıqlarında məktub formasına önəm verməyə başlayır, dövrün çatışmazlıqlarını, haqsızlıqlarını mənzum məktub şəklində qələmə alırdılar.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 32 ədəbiyyat və mədəniyyət xadiminin şəxsi arxivi qorunub saxlanılır. Arxiv sənədləri içərisində epistolyar irs xüsusi əhəmiyyət kəsb edir. Aid olduqları dövrün mühüm ictimai-siyasi, ədəbi, mədəni hadisələri və problemləri yazıçı məktublarında aydın əks olunmuşdur. Məktublar mövzu və problematika etibarilə zəngin və rəngarəngdir. Bu baxımdan sənətkarların yaradıcılıq sirrlərinin öyrənilməsi üçün onların yazışmalarını bir araya gətirərək elmi tədqiqat müstəvisinə çıxarmaq daha əlverişlidir. Məhz bu səbəbdən XIX və XX əsrlər Azərbaycan ədəbiyyatı tarixinin real mənzərəsini əks etdirən ədəbi epistolyar irsin inkişaf tarixini nəzəri aspektdən öyrənmək mühüm əhəmiyyət kəsb edir və mövzunun elmi tədqiqinin vacibliyini, aktuallığını səciyyələndirir.

Yazıçılarımızın epistolyar irsinin çoxcəhətliliyini və zənginliyini, bu irsin bütövlükdə tədqiqata cəlb edilməsinin qeyri-mümkünlüyünü nəzərə alıb AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxivlərdəki məktubları əsas götürmüşük. Əlbəttə, fəlsəfə doktorluğu dissertasiyasının hüdudları çərçivəsində ədəbiyyat xadimlərinin İnstitutda qorunan epistolyar irsini geniş təhlil və şərh etmək imkan xaricindədir. Bu səbəbdən dissertasiyada məktublar faktoloji əhəmiyyətinə görə qruplaşdırılmış, işin səmərəsi üçün ən vacib məqamlar qeyd edilmişdir. Bu yanaşma tərzi yüzlərlə yazıçı məktubunun elmi, ədəbi tənqidini dəqiq meyarlarla ümumiləşdirməyə və nəticə almağa imkan verir.

**Mövzunun tədqiq tarixi.** Yazıçıların epistolyar irsinin tədqiqi sahəsində Azərbaycan ədəbiyyatşünaslığında az da olsa, araşdırmalar aparılmış, mövzu ilə bağlı elmi məqalələr yazılmışdır. Ədəbiyyatımızda epistolyar irsə həsr olunmuş ilk fundamental elmi tədqiqat işi Eldar Cəmilzadəyə məxsusdur. O, 1991-ci ildə "Mirzə Fətəli Axundovun epistolyar irsi" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Bu dissertasiya işində görkəmli filosof yazıçı M.F.Axundzadənin epistolyar irsinin xarakterik xüsusiyyətləri incələnmişdir. Mövzu ilə müəyyən dərəcədə əlaqəli olan "Azərbaycan ədəbiyyatında epistolyar janr və Şah İsmayıl Xətainin "Dəhnamə"si" adlı dissertasiya isə Gülçin Sofiyevaya məxsusdur. Müəllif əsərində epistolyar ədəbiyyat işığında Ş.İ.Xətainin "Dəhnamə"sini tədqiq etmişdir. V.Nəbioğlunun "Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü", S.Şərifovanın "Azərbaycan nəsr janrlarının təşəkkülü və formalaşma prosesi", Ə.Rəsulovun "Türk sənədli-bədii nəsri" adlı tədqiqat əsərlərində müəyyən dərəcədə epistolyar janra yer verilmişdir.

Dilçilik aspektindən aparılmış tədqiqat işlərində epistolyar üslub və onun tərkib hissəsi kimi müxtəlif məktub qrupları, xüsusən ədəbi məktublar haqqında məlumatlar vardır. Belə ki, İ.Salehova "Müasir Azərbaycan dilinin epistolyar üslubu" adlı dissertasiya işində ədəbi məktubların xarakterik xüsusiyyətlərini qeyd etmişdir. A.R.Ağayevanın "Müasir Azərbaycan ədəbi dili üslublarının qarşılıqlı əlaqəsi", A.Qurbanovun "Dil və üslub", H.Həsənovun "Nitq mədəniyyəti və üslubiyyatın əsasları" və digər elmi tədqiqat işlərində məktubların forma və məzmunca bölgüsü aparılmışdır.

Mövzunun hərtərəfli təhlil-tədqiqi üçün dünya ədəbiyyatşünaslıq elminin bu sahədə olan təcrübə və nailiyyətlərindən yararlanılmışdır. R.Kazan, Ö.Akün, A.Ataş, H.D.Batislam, T.G.Dəmirçioğlu, A.Karahan, A.S.Ləvənd, F.A.Tansel, L.A.Bulaxovski, P.E.Buxarkin, V.A.Smetanin, O.Vinokur, L.Giznburq, N.V.Ponırko və digər alimlərin bu barədə rəy və mülahizələri nəzərdən keçirilmişdir.

Qeyd etdiyimiz kimi, epistolyar irsin tədqiqi və nəşri dünya ədəbiyyatşünalığında geniş vüsət almışdır. Ədəbiyyatşünaslıq elmi bu sahədə böyük təcrübəyə malikdir. Azərbaycan ədəbiyyatşünaslığında isə bu problemə nisbətən az diqqət yetirilmişdir. Buna baxmayaraq, ədəbiyyat xadimlərinin epistolyar irsi görkəmli ədəbiyyatşünas alimlərimizin diqqətini cəlb etmiş, bu haqda məqalələr yazılmışdır. Məktublar yazıçıların həyat və fəaliyyətinin tədqiqata cəlb edildiyi ayrı-ayrı monoqrafiyalara, onların "Seçilmiş əsərlər" toplusuna salınmış və yaxud ayrıca kitab şəklində işıq üzü görmüşdür. M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, C.Məmmədquluzadə, M.T.Sidqi, M.S.Ordubadi, S.Vurğun kimi sənətkarların məktubları kitab halında hazırlanaraq ədəbiyyatşünasların və oxucuların ixtiyarına verilmişdir. N.Vəzirovun, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun məktublarının bir qismi isə monoqrafiyalarda yer almışdır. Ümumilikdə, tədqiqat prosesində müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları əsas götürülmüş, mövzu ilə bağlı araşdırmaların təcrübə və nəticələrindən istifadə olunmuşdur.

**Tədqiqat işinin obyekti və predmeti.** Tədqiqatın obyektini şəxsi arxivlərdə mühafizə olunan ədəbi epistolyar irsin sənətkarların həyatını, dövrünü, yaradıcılıq fəaliyyətini, müasirləri ilə əlaqələrini araşdırmaqda, ədəbiyyat tarixinin bəzi qaranlıq, mübahisəli məqamlarına aydınlıq gətirməkdə, onu yeni faktlarla zənginləşdirməkdə olan əhəmiyyətini öyrənmək təşkil edir. Dissertasiyanın predmeti isə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli yazıçıların AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxivlərindəki ədəbi epistolyar irsidir. Bununla yanaşı, yazıçıların həyatını, ailəsinə, müasirlərinə münasibətini, dövrün ictimai-siyasi, iqtisadi durumunu göz önündə canlandıra bilən ailə-məişət, dostluq məktublarına da diqqət yetirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi dünya yazıçılarının ədəbi epistolyar irsinin tədqiqat tarixinə nəzər salaraq, Azərbaycan ədəbiyyatında bu irsin əsas qaynaqlarını və xüsusiyyətlərini elmi-nəzəri cəhətdən işıqlandırmaqdır. Bu səbəbdən Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxivlərindəki ədəbi epistolyar irsi tədqiqat üçün əsas götürülmüşdür. Bununla əlaqədar olaraq, tədqiqat işində həll ediləcək vəzifələr aşağıdakılardan ibarətdir:

– Azərbaycan ədəbiyyatı tarixində yazıçıların şəxsi arxivlərində mühafizə olunan ədəbi epistolyar irsin qaynaqlarını, təşəkkül və təkamül prosesini, tutduğu yeri, əhəmiyyətini düzgün, elmi şəkildə müəyyən etmək;

– Yazıçıların məktublarının müxtəlif tarixi dövrlərdə strukturu, forması barədə məlumat verərək bu ünsiyyət vasitəsinin insanlar arasında geniş yayılmasına zəmin yaradan səbəbləri araşdırmaq;

– Ədəbiyyat xadimlərinin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivlərində yer alan çap olunmuş və ya olunmamış məktublarını mövzu problematikasına görə qruplaşdıraraq elmi-tənqidi təhlilini vermək;

– Ədəbi epistolyar irsin ədəbiyyat tariximizdə özünəməxsus yeri olduğunu və onun müxtəlif ədəbi-nəzəri problemlər zamanı həlledici rolunu elmi şəkildə əsaslandırmaq;

– Ədəbiyyat xadimlərinin ədəbi epistolyar irsinin onların müasirləri ilə yaradıcılıq əlaqələrinin tədqiqində olan önəmini araşdırmaq;

– Dövrün ictimai-siyasi, ədəbi mühitinin təsvirinin və tədqiqinin düzgün məcraya yönəlməsində məktubların əhəmiyyətini elmi təhlil süzgəcindən keçirmək;

– Ədəbi epistolyar irsin ədəbiyyat tarixinin yeni faktlarla zənginləşdirilməsində əhəmiyyətini göstərmək;

– Ədəbi məktub nümunələri əsasında yazıçıların cəmiyyət və ədəbiyyat problemlərinə real münasibətini aydınlaşdırmaq;

– Bu sahədə tədqiqat aparmış ədəbiyyatşünasların elmi əsərlərinin nəticələrinə əsaslanaraq yazıçıların epistolyar irsinin, onun funksiya və nəzəri-estetik mərhələlərinin öyrənilməsinin vacibliyinə diqqət çəkmək.

**Tədqiqat işinin elmi yeniliyi.** Təqdim olunan dissertasiya yazıçıların şəxsi arxivlərində qorunan ədəbi epistolyar irsin onların həyatının, yaradıcılıq fəaliyyətinin müasirləri ilə əlaqələrinin, yaşayıb-yaratdıqları dövrün ictimai-siyasi, sosial-iqtisadi durumunun araşdırılmasında önəm və əhəmiyyətinin tədqiqinə həsr olunmuş ilk tədqiqat işidir. İşin elmi yeniliklərinə aid konkret olaraq aşağıdakıları göstərmək olar:

– Tədqiqat işinin elmi yeniliyi ilk növbədə ədəbiyyat xadimlərinin şəxsi arxivlərində mühafizə olunan ədəbi epistolyar irsin ilk dəfə tam və sistemli şəkildə elmi araşdırmaya cəlb edilməsidir;

– Digər araşdırmalardan fərqli olaraq tədqiqat işi Azərbaycan ədəbiyyatının 20 nümayəndəsinin şəxsi arxivində mühafizə olunan ədəbi epistolyar irsi üzərində qurulmuşdur. Dissertasiya işində ilk dəfə olaraq AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış ədəbiyyat xadimlərinin şəxsi arxivlərində mühafizə olunan epistolyar irs içərisindən ədəbiyyat tarixinə, ədəbi problemlərə dair məktublar toplanılıb sistemləşdirilmiş, onların əsas mövzu

istiqamətləri müəyyənləşdirilərək ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən təhlilə cəlb edilmişdir;

– Yazıçıların müasir dövrümüzə qədər AMEA Əlyazmalar İnstitutunda saxlanılan ədəbi epistolyar irsinin tədqiqi və nəşri məsələləri sistemli şəkildə araşdırılmışdır;

– Tədqiqat işində dövrün mənəvi-əxlaqi dəyərlərinin, ictimai-siyasi vəziyyətinin, tarixi hadisələrin yazıçı yaradıcılığına, məişətinə təsir dairəsi və gücünün məktublarda əksinin təhlil edilməsinə cəhd olunmuşdur;

– Şəxsi arxivlərdə qorunan ədəbi epistolyar irsin müəyyən hissəsi çap olunsa da, bir qisim məktublar əlyazma şəklində qalaraq tədqiq olunmamışdır. Bu arxivlərdən tədqiq olunmamış və ya daha az diqqət yetirilmiş epistolyar irsə Seyid Əzim Şirvaninin, Rəşid bəy Əfəndiyevin, Əbdürrəhim bəy Haqverdiyevin, Süleyman Sani Axundovun, Cəfər Cabbarlının, Qulam Məmmədlinin, Salman Mümtazın və digərlərinin məktubları daxildir. Adları çəkilən müəlliflərin şəxsi arxivlərində qorunan epistolyar irsin əksər hissəsi ilk dəfə əski Azərbaycan əlifbasından transfoneliterasiya və ya rus dilindən tərcümə edilərək elmi tədqiqata cəlb olunmuşdur;

– Həmçinin müasir dövrümüzə qədər müəyyən dərəcədə tədqiq olunmuş bir qisim ədəbi məktubların araşdırmadan kənarda qalmış hissələri və ya onların avtoqraf mətnlə olan bəzi fərqləri ilk dəfə olaraq tədqiqat işində nəzərə çatdılırmışdır;

– Ümumiyyətlə, tədqiqat işində geniş arxiv materialları əsasında, konkret nümunələrə istinad edilməklə ədəbi epistolyar irsin ədəbiyyat və ictimai fikir tariximizdə yeri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasları.** Dissertasiyanın metodologiyasında mövzu ilə bağlı dünya və Azərbaycan alimlərinin rəy və mülahizələrinə münasibət bildirilərək tipoloji təsnifat və tarixi-müqayisəli metod əsas götürülmüşdür. Dissertasiyada yazıçıların ədəbi epistolyar irsinin tədqiqinə müxtəlif rakurslardan yanaşan tədqiqatçıların fərqli düşüncələri incələnmişdir.

**Tədqiqat işinin nəzəri-praktik əhəmiyyəti.** Azərbaycan ədəbiyyatı tarixinin araşdırılmasında, yazıçılarımızın həyat və yaradıcılığına dair monoqrafiyaların yazılmasında, mövzu ilə əlaqədar gələcək tədqiqat işlərinin aparılmasında dissertasiyanın başlıca müddəa və nəticələrinə istinad etmək mümkündür. Tədqiqat işi ali məktəblərin humanitar fakültələrində istifadə üçün faydalıdır. Müasir dövrümüzə qədər yazıçıların şəxsi arxivlərində əlyazısı şəklində qalan, geniş ictimaiyyətə bəlli olmayan məktubların bir qisminin əski Azərbaycan əlifbasından transfoneliterasiya, bir qisminin isə rus dilindən tərcümə edilərək ədəbiyyatşünasların, gələcək tədqiqatçıların,

oxucuların ixtiyarına verilməsi onlarda müəyyən məlumat və rəyin formalaşmasına yardımçı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Şəxsi arxivlərin tədqiqi" şöbəsində hazırlanmışdır. Tədqiqat işi ilə əlaqədar əldə olunan əsas elmi müddəalar doktorantın müxtəlif elmi nəşrlərdə dərc edilən məqalələrində verilmişdir. Mövzu ilə bağlı respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslarda məruzələr edilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiq tarixi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsası, elmi yeniliyi, praktik əhəmiyyəti öyrənilmişdir.

Dissertasiyanın birinci fəsli **"Ədəbiyyatda epistolyar irsin formalaşması və ilkin qaynaqları"** adlanır, iki yarımfəslə bölünür. **"Epistolyar irs və onun inkişaf tarixinə bir nəzər"** adlı birinci yarımfəsildə məktubların qədim zamanlardan bəri insanlar arasında etibarlı ünsiyyət vasitəsi kimi yarandığı, tarixi keçmişinin yazının kəşfi ilə üstə-üstə düşdüyü qeyd edilir. A.Qurbanovun qeyd etdiyi kimi, insanlar zaman keçdikcə artan informasiya mübadiləsi ehtiyacını ödəmək üçün ünsiyyətə köməkçi olan ikinci bir vasitəni, yəni yazını yaratmışdırlar[1].

Müxtəlif ictimai mövqeyə malik insanların məktublarını özlərində mədəni, tarixi, sosial-iqtisadi və s. məsələləri ehtiva edən dəyərli sənədlər kimi qiymətləndirmək mümkündür. Bu səbəbdəndir ki, əsrlər boyunca hökmdarların, dövlət xadimlərinin, ədəbiyyat və incəsənət nümayəndələrinin, o cümlədən, cəmiyyətin həyatında əhəmiyyətli rola malik olan şəxslərin məktubları mümkün olduğu qədər mühafizə edilərək dövrümüzə qədər çatdırılmışdır.

Qərbdə antik dövrə aid məktub nümunələri şəxsi məzmundan daha çox siyasi, fəlsəfi, sosial və ədəbi mahiyyət daşımışdır. Bu hal təbii ki, belə mətnlərin janrının müəyyənləşdirilməsi məsələsini çətinləşdirmiş, tədqiqatçılar arasında fikir ayrılığına səbəb olmuşdur. Epistoloqrafiyanın qarşısında duran problemlərdən biri yazıçıların şəxsi yazışmaları ilə onların epistolyar üslubda yaradılmış ədəbi əsərləri arasındakı hüdudu müəy-

---

[1]Qurbanov A. Ümumi dilçilik. Bakı: Maarif, 1976, s. 255.

yənləşdirmək olmuşdur. “Antik dövrdə məktublar ədəbi əsər şəklində yazılır, onların üslub və quruluşu ritorika ilə müəyyən edilirdi və buna görə də şəxsi yazışmalar ilə epistolyar üslub arasında kəskin sərhəd qoymaq çətindir”[1]. Geniş kütləyə xitab edən məktubların əsas əlamətdar cəhətlərindən birini, yəni konkret şəxs olan adresatını itirərək ümumi səciyyə almasına görə onlar memuarlarla, gündəliklərlə eyniləşdirilirdi. Lakin fikrimizcə, adresatın konkret və ya ümumiliyindən asılı olmayaraq mövcudluğu məktubları adıçəkilən formalardan fərqləndirir.

Bu yarımfəsildə zaman keçdikcə cəmiyyət üzvləri, xüsusilə ədəbiyyat xadimləri arasında məktublaşmaya marağın artdığı qeyd edilir. Bu marağın nəticəsi kimi, demək olar ki, müəlliflər bəzən bədii əsərlərini belə epistolyar formada qələmə almışlar.

Yarımfəsildə görkəmli dünya ədəbiyyatı nümayəndələrinin epistolyar irsinə müraciət edilərək qarşılıqlı yazışmaların ədəbiyyat tarixi üçün önəm və əhəmiyyəti əsaslandırılır. Məktub növünün Qərb və Şərq ədəbiyyatı kontekstində inkişaf tarixi incələnir. Belə ki, Şərq ədəbiyyatında məktubların xüsusi rolu və əhəmiyyəti olmuşdur. Onlar, əsasən, münşəatlarda toplanılmışdır. Şərqdə dərin köklərə malik məktub toplularından ibarət olan münşəatlar sənətkarların həyat və yaradıcılığını araşdırmaq üçün əhəmiyyətli mənbə hesab olunmuşdur. Ədəbi məktublar xüsusi növ kimi fərqləndirilmişdir: “Ədəbi məktub yazma sənətinə “tərəssül” (sınaatül-tərəssül), yazana da mütərəssil deyilir. Divani-İnşada vəzifə tutacaq mütərəssillər ən yüksək ədəbi üsluba malik ədib və yazarlar arasından seçilirdi”[2].

Türkiyə ədəbiyyatşünaslarından Ç.Dərdiyox əski türk ədəbiyyatındakı məktub nümunələrinin xüsusi quruluşa malik olduğunu yazır. O, məktubların əlqab (ləqəblər, rütbə bildirən sözlər – A.Q.), ibtida (başlanğıc – A.Q.), təxəllüs (keçid bildirən hissədir - A.Q.), tələb, intiha (sona çatma, axıra yetişmə – A.Q.), dua və imza olmaq üzrə 7 hissədən ibarət olduğunu göstərir[3].

Əlyazmalar İnstitutunda müxtəlif əsrlərə aid münşəatlar qorunub saxlanılır. Bunlardan Əbdürrəhman Caminin fərqli zamanlarda ayrı-ayrı katiblər tərəfindən üzü köçürülmüş münşəatını, Xondəmirinin “Nameyi-nami”, “Tərəssüli-Osmani”, Mahmud ibn Osman Lamii Çələbinin, Əlişir Nəvainin münşəatını, Firidun bəyin “Münşəati-Salatın”ını və s. qeyd etmək

---

[1]Большая советская энциклопедия. Главный ред. А.М.Прохоров. В 30-х томах, т. 30. Москва: Советская энциклопедия, 1978, с. 220.

[2]www.islamansiklopedisi.info

[3]www.turkoloji.cu.edu.tr

mümkündür. Əsrlər keçdikcə Şərq ədəbiyyatında məktub öz əhəmiyyətini itirməmiş, daha da rövnəqlənmişdir. Tədqiqatçı A.Tansel yazır: "Məktublar ən çox istifadə edilən və diqqətçəkən yazı növlərindən birini təşkil edir. Tarix, roman, hekayə, dram və başqa növlərdə əsər yaratmaq, bu yolda uğur qazanmaq şəxsi təmayül və qabiliyyətə, mürəkkəb iş və hazırlıq dövrünə ehtiyac duyur; digər tərəfdən, belə əsərlər haqqında fikir və bilgi sahibi olmayan, dolayısıyla bunları oxumayan və görməyən insanlara hər yerdə rast gəlmək mümkündür. Məktublara gəldikdə isə istər rəsmi və iş sahəsində, istərsə də şəxsi olan, gündəlik həyatımızda hamımızın yazmağa, oxumağa məcbur qaldığımız üçün ən çox əlaqədə olduğumuz növdür və bu səbəbdən digər növlərdən seçilir. Elə buna görə də, məktublar hər bir millətin ədəbiyyatında mühüm yer tutur..."[1]

Türk ədəbiyyatında məktub janrının yaranması və inkişaf tarixini araşdıran ədəbiyyatşünas alim Əsgər Rəsulov qeyd edir ki, məktubdan ya müstəqil janr olaraq, ya da ədəbi forma kimi bəzi türk ədiblərinin maarifçi ideyalarının təbliğində, Türk dili və ədəbiyyatının bütün məsələlərinin təhlilində istifadə edilmişdir. "Bəzi ədəbi məktublar ədəbi tənqidin formalarından biri kimi çıxış edir. Bütün bunlar tarixi fakt, sənəd olaraq çox qiymətlidirlər, məktub müəllifinin ümumi dünyagörüşü, həyatı və yaradıcılığı, ədəbi-tənqidi və nəzəri-estetik görüşləri haqqında əvəzsiz mənbələrdirlər"[2]. Ədəbi epistolyar irs vasitəsi ilə bir tərəfdən yazıçıların həyat və yaradıcılığını, duyğu və düşüncələrini, sevinc və kədərini, digər tərəfdən isə dünya ədəbiyyatı tarixinin müxtəlif mərhələlərində baş verən dəyişiklikləri, durğunluğu və ya inkişaf istiqamətlərini izləmək mümkün olur. Bu baxımdan dünya ədəbiyyatında yazıçıların ədəbi epistolyar irsinin toplanmasına, tədqiq və nəşr olunmasına daim böyük maraq olmuşdur.

İkinci yarımfəsil **"Azərbaycan ədəbiyyatında epistolyar irs və onun əsas mənbələri"** adlanır. Bu yarımfəsildə Azərbaycan ədəbiyyatında epistolyar irsin qaynaqları və inkişaf tarixi araşdırılır. Bildirilir ki, kommunikasiya vasitələrinin olduqca məhdud olduğu dövrlərdə bir-birindən uzaq məsafədə yaşayan sənətkarlar ədəbi düşüncələrini bölüşmək, əsərləri haqqında məlumat vermək, müzakirələr aparmaq üçün məhz məktub – ünsiyyət vasitəsindən istifadə etmiş, hətta bəzi yazarlar öz əsərlərini epistolyar janrda yaratmışdırlar. Məktublarda yazıçıların məişətinin, həyatlarında baş vermiş müxtəlif xarakterli hadisələrin, yaşadıqları mühitin əyani təsviri var-

---

[1]Tansel F.A. Namık Kemalin hüsusi mektupları. Ankara: Türk Tarih Kurumu Basımevi, 1967, s.13.

[2]Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı: Elm, 2004, s. 366.

dır. Təsadüfi deyil ki, L.A.Bulaxovski qeyd edir ki, yazıçı məktublarının əksər hissəsi yüksək bədii əsər təsiri bağışlayır... Bu məktublar özünün son dərəcə zəngin məzmunu, eləcə də (sözün geniş mənasında), dilinə görə onların çap olunan bədii əsərlərindən heç də daha az diqqətəlayiq deyil..."[1]

Azərbaycan ədəbiyyatı tarixində məktublaşma ənənəsi dərin köklərə malik olmuşdur. Məktublaşmanın ilk nümunələrinə şifahi xalq ədəbiyyatımızda rast gəlmək mümkündür. Azərbaycan xalqının qəhrəmanı Tomris haqqındakı əfsanədə qadın hökmdarın Əhəməni Kirə göndərdiyi iki məktub böyük əhəmiyyət daşıyır. Bu tendensiya yazılı ədəbiyyatımızda da özünə geniş yer tapmışdır.

Daha sonrakı dövr ədəbiyyatımızda isə Xaqani Şirvaninin "Töhfətül-İraqeyn", Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemalarının, Məhəmməd Füzulinin "Leyli və Məcnun", Əbdülqadir Marağainin "Eşqnamə", Marağalı Əhvədi, Şah İsmayıl Xətainin "Dəhnamə" əsərlərində süjet və kompozisiyanın qurulması, qəhrəmanların psixoloji vəziyyətlərinin, duyğularının daha aydın ifadəsi üçün onların dilindən bir-birinə göndərilən məktublardan istifadə edilmişdir. Əsərlərdə obrazların dilindən verilən məktublar yazıldıqları dövrün məktublaşma ənənəsinə aid məlumatları əks etdirir. Görkəmli ədəbiyyatşünas alim Kamran Məmmədov Nizaminin "Xosrov və Şirin" əsərində yer almış bir məktub haqqında yazır: "Nizamidə satiranın kinayəli məktub forması da işlənmişdir. "Məryəmin ölümü münasibəti ilə Şirinin Xosrova kinayəli cavab məktubu" buna yaxşı misaldır"[2].

Çoxəsrlik ənənələrə malik olan yazılı ədəbiyyat tariximizdə məktubları günümüzə qədər gəlib çatan ilk ədiblərdən biri Xaqani Şirvani sayılmaqdadır. Görkəmli ədəbiyyatşünas alim Qafar Kəndli-Herisçi Xaqani Şirvaninin "Münşəat"ının əlyazma nüsxəsinin XVII əsrdə yaşamış Əbubəkr ibn Rüstəm ibn Əhməd əş-Şirvaninin şəxsi kitabxanasında mövcud olduğunu söyləyir[3]. Şairin ərəb və fars dillərində yazılmış məktublarında onun tərcümeyi-halı, həyatının mərhələləri, qohumları, dostluq əlaqələri haqqında məlumatlar, dövrün ictimai-siyasi məsələlərinə münasibəti öz əksini tapmışdır. XII əsr Azərbaycan şairi Eynəlqüzat Miyanəçinin məktublarının toplandığı münşəatı vardır. XIII əsrdə yaşayıb yaratmış Hümam

[1]Булаховский Л.А. Русский литературный язык первой половины XIX века. Киев: Киевского Государственного Университета, 1957, с.167-168.
[2]Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı: Elm,1975, s. 68.
[3]Kəndli Q. H. Xaqani Şirvani (həyatı, dövrü və mühiti). Bakı: Elm, 1988, s. 48.

Təbrizinin az sayda nəsr və nəzmlə yazılmış məktubları dövrümüzə qədər gəlib çatmışdır.

Məlumdur ki, Şərq ədəbiyyatında "Dəhnamə"lər mövcud olmuşdur. Azərbaycan ədəbiyyatında Marağalı Əhvədi, Hümam Təbrizi, Şərəfəddin Rami də bu üsluba müraciət edərək "Dəhnamə" yaratmışdırlar. Professor Azadə Musayeva Şah İsmayıl Xətainin "Dəhnamə"si ilə XV əsr şairlərindən Xəlilinin "Firqətnamə" əsəri arasında olan mövzu, forma, süjet, məzmun və kompozisiya oxşarlığını qeyd edir. Bu əsərin süjetinin qurulmasında da müəllifin məktublardan istifadə etməsini nəzərə çatdırır. G.Sofiyeva haqlı olaraq yazır: "Epistolyar janr – hökmdar və şair Xətaini bütöv bir şəxsiyyət kimi təqdim etmək üçün böyük imkanlar yaradır. Belə ki, rəsmi yazışmalarından gördüyümüz Şah İsmayıl zərifliyini, nəzakətini, etikasını "Dəhnamə" poemasında və lirik şeirlərindəki epistolyar nümunələr vasitəsilə şair Xətaidə də görürük"[1].

Səfəvilər dövlətinin hökmdarı olan Şah İsmayıl Xətainin epistolyar irsinin əksər hissəsini təbii ki, hökmdarlara, dövlət xadimlərinə ünvanlanmış siyasi məzmunlu məktublar təşkil edir. Bu yazışmalar böyük tarixi əhəmiyyət kəsb etməklə bərabər, ədəbi mahiyyəti də özlərində ehtiva edirlər.

Məktub müəllifə öz fikirlərini cəsarətlə söyləmək imkanı verən xüsusiyyətə malikdir. Məhəmməd Füzulinin Nişançı Cəlalzadə Mustafa Çələbiyə ünvanladığı, ədəbiyyat tarixində isə "Şikayətnamə" adı ilə tanınan məktubu diqqəti cəlb edir. Onun "Şikayətnamə"dən başqa türk dilində elmə məlum olan dörd məktubu da vardır ki, bunlar Əhməd bəyə, Bəyazid Çələbiyə, Ayaz Paşaya, Qazi Əlaəddinə ünvanlanmışdır.

Qafar Kəndli XVII əsrdə yaşamış görkəmli İran şairi Həkim Şərəfəddin Həsən Şəfai ilə Saib Təbrizi arasındakı yazışmalardan bəhs edir. XVIII əsr Azərbaycan ədəbiyyatı tarixində M.V.Vidadi ilə V.P.Vaqif arasındakı mənzum məktublaşma ənənəsi özünü daha qabarıq şəkildə büruzə verir. Daha sonra Qasım bəy Zakirin yaradıcılığının əhəmiyyətli hissəsini təşkil edən mənzum məktublara toxunulur. Sonda müasir dövrümüzdə də ziyalıların məktublarının ədəbiyyatşünaslıq üçün əhəmiyyət daşıdığı və kitab şəklində çap olunduğu qeyd edilir.

Dissertasiyanın **"Şəxsi arxivlər və epistolyar nümunələr"** adlanan fəsli iki yarımfəslə bölünür. **"Şəxsi arxivlərdə mühafizə olunan epistolyar irsin tədqiqi və nəşri barədə"** adlı yarımfəsildə müasir dövrümüzə

---

[1]Sofiyeva G. Azərbaycan klassik ədəbiyyatında epistolyar janr və Xətai "Dəhnaməsi". Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Əlyazması hüququnda. Bakı: 2000, s. 129.

qədər Əlyazmalar İnstitutunun şəxsi arxivlərində qorunan və çap olunmuş ədəbi epistolyar irsin ümumi səciyyəsi verilir. Belə ki, görkəmli sənətkarların ədəbi epistolyar irsi ədəbiyyatı janr və üslub baxımından zənginləşdirmişdir. Yazıçıların şəxsi arxivlərində saxlanılan epistolyar irsin tədqiqi və nəşri ədəbiyyatşünasların diqqətini cəlb etmiş, bu sahədə bir sıra elmi tədqiqat işləri aparılmışdır. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Eldar Cəmilzadə M.F.Axundzadənin məktubları əsasında epistolyar irs haqqında əhatəli elmi araşdırma aparmışdır. Filosof yazıçı Mirzə Fətəli Axundzadənin epistolyar irsinin tədqiqi göstərir ki, onun məktublarında daha çox ərəb əlifbasının islahından, ölkədə elm, mədəniyyət və ədəbiyyatın vəziyyətini yaxşılaşdırmaq üçün mətbəə açmaq təşəbbüsündən, insanların mədəni inkişafına maneə törədən adətlərin, şəxslərin ifşasından, Qərb və Şərqin mənəvi-əxlaqi dəyərlərinə münasibətdən bəhs edilir. Mirzə Fətəli Axundzadənin şəxsi arxivindəki yazışmaların əksər hissəsini onunla oğlu arasında olanlar təşkil edir. Bu, şübhəsiz ki, Rəşid bəyin atası kimi istedadlı olması, onunla ruh və əqidə uyğunluğundan irəli gəlmişdir. Professor Feyzulla Qasımzadə M.F.Axundzadənin epistolyar irsinin ümumi səciyyəsi barəsində haqlı olaraq yazır: "Bu məktublardan biz Axundovun hərtərəfli inkişaf etmiş ziyalı, yüksək zəkalı alim və mütəfəkkir, feodal qaranlıqları ilə amansız mübarizə aparan maarifçi, alovlu vətənpərvər, gözəl və nəcib sifətlərə malik olan böyük insan, səmimi dost, qayğıkeş ata olduğunu öyrənirik"[1].

Məlum olduğu kimi, Mirzə Fətəli Axundzadənin yaxın dostu olan Həsən bəy Zərdabi Bakı realnı gimnaziyasının tələbələri ilə birlikdə dramaturqun komediyalarını səhnələşdirmişdir. M.F.Axundzadə ilə H.Zərdabi arasındakı yazışmalar hər iki ziyalının cəmiyyətin mədəni inkişafında, maariflənməsində teatrı mühüm vasitə hesab etdiklərini göstərir. H.Zərdabinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində mühafizə olunan bioqrafiyası və epistolyar irsi 2006-cı ildə M.Məmmədova tərəfindən tərtib olunaraq nəşr edilmişdir. Kitaba H.Zərdabinin müasirlərinə və müxtəlif şəxslərin ona ünvanladığı məktublar daxil edilmişdir. H.Zərdabinin məktublarından onun xalqın cəhalət məngənəsində xilas olmasında teatr və mətbuatın roluna xüsusi əhəmiyyət verdiyi anlaşılır. O, məktublarında əsl ziyalı kimi cəmiyyəti geridə qoyan və mədəni tərəqqiyə maneə törədən dini fanatizmi kəskin tənqid edir, belə halların mənəvi və fiziki şikəstliyə səbəb olduğunu yazırdı. H.Zərdabi

[1]Qasımzadə F. Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1962, s. 29.

Axundzadəyə yazdığı məktublarının birində yazıçıdan "Əkinçi" qəzetinin nəşri işində, intişar tapmasında, abunəçilərin toplanmasında kömək etməsini xahiş edir. Axundzadə isə məktubunda qəzetin Azərbaycan dilinin saflığı, təmizliyi uğrunda çalışaraq məqalələrin sadə, aydın dillə yazılmasının labüdlüyünü bildirir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerləşən ən zəngin arxivlərdən biri görkəmli yazıçı Cəlil Məmmədquluzadəyə məxsusdur. Mirzə Cəlilin ədəbi-bədii irsi kimi epistolyar irsi də zəngin və çoxşaxəlidir. Buna görə də bu irsin araşdırılması, toplanması və nəşri bir çox görkəmli ədəbiyyatşünas alimlərin marağına səbəb olmuşdur. Yazıçının əsərlərinin 1935-47-ci illərdə nəşr olunmuş üç cildliyinə məktubları daxil edilməmişdir. 1954-cü ildən başlayaraq görkəmli ədəbiyyatşünas alim Əziz Mirəhmədov müxtəlif zamanlarda Cəlil Məmmədquluzadənin məktublarını tədqiq və çap etmişdir. Cəlil Məmmədquluzadə yaradıcılığına dərindən bələd olan akademik İsa Həbibbəyli yazıçının epistolyar irsini tədqiq edərək onun ədəbiyyat aləminə məlum olmayan bəzi məktublarını işıq üzünə çıxarmış və bu haqda geniş şərh yazmışdır.

Cəlil Məmmədquluzadənin şəxsi arxivində mühafizə olunan məktublar arasında dövrünün ziyalıları tərəfindən ona ünvanlanmış məktublar xüsusi əhəmiyyət kəsb edir. Bu ziyalılar sırasında Əziz Şərif, İsmayıl Qasprinski, Əli Razi Şamçızadə, Oskar İvanoviç Şmerlinqin və başqalarının adını çəkmək olar. Onların yazışmalarının əsas mövzusu, əlbəttə ki, "Molla Nəsrəddin" jurnalı olmuşdur. Cəlil Məmmədquluzadənin məktubları onun əsərlərini, "Molla Nəsrəddin" jurnalını ərsəyə gətirmək, qoruyub-saxlamaq üçün hansı əziyyətlərə düçar olması barədə aydın təsəvvür yaradır.

Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixində əhəmiyyətli yer tutan şəxsiyyətlərdən biri Firidun bəy Köçərlidir. F.Köçərlinin məktublarının çoxu 1937-ci ildə məhv edildiyindən onun arxivindəki məktubların əksəriyyəti ailə-məişət mövzusunda Badisəba xanıma, bir hissəsi isə müasirlərinə ünvanlanmış nümunələrdir. Bu barədə F.Köçərlinin şəxsi arxivini, o cümlədən, epistolyar irsini nəşr etdirən filologiya üzrə elmlər doktoru M.Adilov məlumat verir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivlərdən biri Salman Mümtaza aiddir. Ədibin məktubları onun irsini daha ətraflı tədqiq etmək üçün önəmli mənbələrdəndir. Salman Mümtazın arxivində qorunan məktublarından onun Y.N.Marr ilə olan yazışmaları ədəbiyyatşünas Ə.Cəfərzadə tərəfindən tədqiq və nəşr olunmuşdur.

Geniş və çoxşaxəli ədəbi, tənqidi yaradıcılığa malik olan M.S.Ordubadinin epistolyar irsi zənginliyi ilə seçilir. Bu irs, demək olar ki,

Ordubadinin həyatının və yaradıcılığının əksər mərhələlərini özündə əks etdirir. Görkəmli yazıçının Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivində yer almış məktublar filologiya üzrə elmlər doktoru N.Səmədova tərəfindən tədqiq edilərək nəşr edilmişdir.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Səməd Vurğunun arxiv sənədlərinin bir qismi 1964-cü, bir qismi isə 1969-cu ildə Əlyazmalar İnstitutuna verilmişdir. Bu sənədlərin sırasına onun xatirələri, əsərlərinin makina nüsxələri, bəzilərinin avtoqrafları, məruzə və çıxışları, xüsusilə, çoxsaylı məktubları daxildir. Şairin zəngin və dəyərli epistolyar irsi araşdırıcılar tərəfindən tədqiqata cəlb olunmuşdur. Yazıçı-jurnalist Şəmistan Nəzərli Səməd Vurğunun epistolyar irsini toplayaraq “Vurğun ömrü məktublarda” adlı kitabında çap etdirmişdir. Bu məktublar mövzu dairəsinə görə müxtəlifdir. Burada şairin əsərlərini, dövrünün ədəbi, ictimai-siyasi, mədəni-iqtisadi vəziyyətini, müasirlərinə münasibətini öyrənmək üçün qiymətli məlumatlar vardır. Xalq şairinin məktublarında ədəbiyyat məsələləri geniş surətdə öz əksini tapır. Bu məktubların dil-üslub xüsusiyyətlərinin gözəlliyi, əlvanlığı, canlılığı təqdirəlayiqdir.

Bilavasitə mənbələrdən istifadə olunmaqla sənətkarların həyat və yaradıcılıq yolunun aydın və ətraflı şəkildə araşdırılmasına imkan verməsi baxımından ədəbi epistolyar irsin tədqiqi vacibdir. Burada göstərilən faktların məhz müəllifin öz dilindən verilməsi məktubların əhəmiyyətini daha da artırır. Məktubların tədqiqi zamanı onların aid olduqları dövrün dil, üslub xüsusiyyətlərinə yaxından bələd oluruq. Ədəbiyyat xadimlərinin məktubları onların yaradıcılıq axtarışlarını, bu yolda qarşılaşdıqları çətinlikləri, eləcə də ədəbi əlaqələri işıqlandırmaq baxımından dəyərli mənbələrdir.

İkinci yarımfəsil **“Ədəbiyyat xadimlərinin şəxsi arxivlərində mühafizə olunan epistolyar irsin mövzu xüsusiyyətləri”** adlanır. Qeyd edildiyi kimi, məktublar yazıçıların yaradıcılıq yeniliklərini, ədəbi proses haqqındakı düşüncələrini bir-biri ilə bölüşmələri üçün əlverişli vasitə olmuşdur. Bu yarımfəsildə H.Həsənov, A.Qurbanov və digər alimlərin bu barədə mülahizələrinə istinad edilir. Qeyd edilir ki, məktublar müxtəlif məzmunlu olub, özünəməxsus xüsusiyyətləri – mövzuları, yazılış məqsədi, təhkiyə üsulu ilə bir-birindən fərqlənirlər. Bu fərqlilikləri nəzərə alaraq məktubları, əsasən, şəxsi, dostluq, ailə-məişət, rəsmi, ədəbi və s. növlərdə qruplaşdırmaq mümkündür. Ədəbi məktublar ədəbiyyat xadimləri tərəfindən yazılır və onların mövzusu başlıca olaraq ədəbiyyat, dil, mədəniyyət, incəsənət məsələlərini, problemlərini ehtiva edir. Məktublar da vardır ki, onları ədəbi problemlərin qaldırıldığı, dövrün ədəbiyyatına münasibətin

bildirildiyi kiçik məqalə hesab etmək olar. Bu məktubları ədəbi-tənqidin bir forması kimi də qəbul etmək məqsədəuyğundur.

Yazıçıların AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivlərində mühafizə olunan epistolyar irsi mövzu xüsusiyyətlərinə görə fərqlənir. Arxivlərdəki epistolyar irs ilə tanışlıq nəticəsində demək olar ki, buradakı məktublar, əsasən, şəxsi münasibətlər zəminində, dostluq, yoldaşlıq məzmununda yazılmışdır.

Əlyazmalar İnstitutunda ədəbiyyat və mədəniyyət xadimlərinin şəxsi arxivlərinin yaradılması işinə XIX əsrin ensiklopedik şəxsiyyəti Abbasqulu ağa Bakıxanovun fondu ilə başlanılmışdır. Təəssüf ki, A.Bakıxanovun şəxsi fondu içərisindən ədibin özünün yazdığı və ya ona ünvanlanmış heç bir avtoqraf məktub müəyyənləşdirilməmişdir. Bu fonda daxil olan məktublar, əsasən, ayrı-ayrı alimlərin A.Bakıxanovun həyat və yaradıcılığı, ədəbi irsi haqqında yazışmalarından ibarətdir. Arxivdəki məktubların böyük əksəriyyəti İ.K.Yenikolopov tərəfindən Azərbaycan alimlərinə ünvanlanmışdır.

Qulam Məmmədlinin Əlyazmalar İnstitutunda yerləşən şəxsi arxiv sənədləri içərisində də məktublar say etibarilə azlıq təşkil edir. Müasir dövrümüzə qədər bu arxivdəki məktublar ətraflı tədqiqatdan kənarda qalmışdır. Dissertasiyada ilk dəfə olaraq Q.Məmmədli arxivindən bir neçə məktub tədqiqata cəlb olunmuşdur ki, bunlara Ə.Şərifin, H.Naxçıvaninin tədqiqatçıya ünvanladıqları daxildir.

Seyid Əzim Şirvaninin İnstitutdakı şəxsi arxivi də epistolyar irsin həcminə görə digər fondlardan daha məhduddur. Şairin şəxsi arxivində cəmi 5 məktub nümunəsi vardır ki, bunların yalnız ikisi onun özünə aiddir, biri S.Ə.Şirvaninin yaradıcılıq məziyyətlərinin nəzmə çəkildiyi məktubdur. Digər məktubu S.Ə.Şirvaninin oğlu Mircəfər övladının təhsili ilə bağlı Cəlil adlı bir şəxsə ünvanlamışdır. Sonuncu məktub isə Əbdülxaliq Cənnətiyə məxsusdur. S.Ə.Şirvaninin arxivindəki maraqlı məktublardan biri onun Agahi ilə mənzum məktublaşmasıdır. Bu mənzum məktublaşma əsnasında S.Ə.Şirvaninin Agahiyə göndərdiyi məktub şairin 1989-cu ildə çap olunmuş "Seçilmiş əsərlər"inə daxil olunsa da, kitabda Agahinin ona cavabı verilməmişdir. Məktub Agahinin dissertasiyada ilk dəfə tədqiqata cəlb olunan qəzəli ilə başlayır.

Şəxsi arxivlərdə qorunan epistolyar irsin bir hissəsini yazıçıların yubiley tədbirləri münasibəti ilə ünvanlanmış məktublar təşkil edir. N.Vəzirovun arxivindəki məktubların böyük əksəriyyəti yazıçının 1913-cü ildə qeyd edilən ədəbi-tənqidi fəaliyyətinin 40 illik yubileyi münasibəti ilə bağlıdır. Ə.Haqverdiyevə ünvanlanan məktubların da əksəriyyəti tanınmış şəxsiyyətlər tərəfindən Azərbaycandan və həmçinin müxtəlif ölkələrdən ədibi

yubileyi münasibətilə təbrik etmək məqsədi ilə göndərilmişdir. Dissertasiyada ilk dəfə tədqiqata cəlb olunan bu məktublar ətraflı şərh edilir.

Salman Mümtazın AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivindəki tədqiq olumamış məktubların bir neçəsi onun Mirzə Şəfi Vazeh və digər şəxslərə dair apardığı tədqiqat işinin nəticələri ilə bağlıdır. Salman Mümtazın rus şərqşünasları, xüsusilə, İ.K.Yenikolopovla dostluq münasibətləri, Moskva və Leninqrad arxivləri ilə tanışlığı onun araşdırmalarına müsbət təsir göstərmişdir. Onun arxivindəki məktublardan bir neçəsi Tiflis Universitetinin professoru İvan Konstantinoviç Yenikolopova ünvanlanmışdır. Bu məktubların məzmununu müxtəlif ədəbi məsələlərlə yanaşı, Mirzə Şəfinin həyat və yaradıcılığı haqqında iki ədəbiyyatşünas arasında olan məlumat və fikir mübadiləsi təşkil edir. Dissertasiyada bu məqamlara diqqət yetirilir.

XX əsr Azərbaycan ədəbiyyatının klassiklərindən olan Süleyman Sani Axundovun Əlyazmalar İnstitutundakı şəxsi arxivində olan məktubları müasir dövrümüzə qədər əhatəli şəkildə tədqiq olunmamışdır. Burada saxlanılan 20-dən artıq məktubun yazıçının həyat və yaradıcılığının dərindən araşdırılması üçün böyük əhəmiyyəti vardır. S.S.Axundovun şəxsi arxivində qorunan məktubların bütöv mətninin bir hissəsi rus dilindən tərcümə, bir qismi isə transfoneliterasiya edilərək ilk dəfə tədqiqata cəlb olunmuşdur.

Görkəmli maarifçi, ədib Rəşid bəy Əfəndiyevin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən şəxsi arxivindən yazıçı haqqında olduqca dəyərli məlumatlar əldə etmək mümkündür. Onun məktubları müasir dövrümüzə qədər əlyazma şəklində qalmış, çap olunmamışdır. Maarifçi yazıçının şəxsi arxivində 17 məktub saxlanılır ki, bunlardan 8-i yazıçının göndərdiyi, 9-u isə ona ünvanlanan məktubdur. Bu məktublar rus və Azərbaycan dillərində olub, ərəb, kiril və ya latın qrafikasında yazılmışdır. Bu məktublar bütövlükdə ilk dəfə olaraq dissertasiyada tədqiqata cəlb olunmuşdur.

Yazıçıların Əlyazmalar İnstitutunda qorunan şəxsi arxivlərindəki epistolyar irsi onların həyat və yaradıcılığının tədqiqində məktubların önəmli rolunun bariz nümunəsidir. Burada saxlanılan zəngin şəxsi arxivlərdən biri Azərbaycanın böyük yazıçısı Cəfər Cabbarlıya məxsusdur. Müxtəlif tədqiqatçılar tərəfindən C.Cabbarlının ünvanladığı məktubların bir qismi araşdırılsa da, ona ünvanlanmış, ədəbi əhəmiyyəti ilə seçilən məktubların əksər hissəsi tədqiqatlardan kənarda qalmışdır. İlk dəfə tədqiqata cəlb olunan bu məktublarda "Od gəlini", "Sevil", "Almaz", "Yaşar" pyesləri haqqında mövcud olan ədəbi mübahisələr, C.Cabbarlının tərcümə, teatr,

kino fəaliyyəti barədə məlumatlar, yazıçının dövrünün ziyalıları ilə yaradıcılıq əlaqələrini əks etdirən məqamlar maraq doğurur.

Aparılan araşdırma sübut edir ki, yazıçıların ədəbi epistolyar irsi Azərbaycan ədəbiyyatını janr və mövzu baxımından zənginləşdirən, ona yeni baxış bucağı və nəfəs gətirən əhəmiyyətli, orijinal mənbədir. Bu özünəməxsus xüsusiyyətlərinə görə ədəbiyyat xadimlərinin epistolyar irsinin tədqiqi və nəşri öz aktuallığını daim qoruyub saxlayır.

Üçüncü fəsil "**Şəxsi arxivlərdə qorunan epistolyar irs dəyərli mənbə kimi**" adlanır. Bu fəslin birinci yarımfəsli "**Məktubların ədəbiyyat xadimlərinin həyat və fəaliyyətlərinin, yaradıcılıq əlaqələrinin öyrənilməsində rolu**"nun tədqiqinə həsr olunmuşdur. Yarımfəsildə qeyd edildiyi kimi, ədəbi məktublar vasitəsilə yazıçıların yaradıcılıq yolunu, onların bu yolda qarşılaşdıqları çətinlikləri və ya nailiyyətləri real şəkildə görmək mümkündür. Şəxsi arxivində qorunan epistolyar irsin zənginliyi ilə seçilən ədəbiyyat xadimlərindən olan Məhəmməd Tağı Sidqinin Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində ədəbi və pedaqoji irsi ilə tanınan, bir sıra lüğətlər, dərsliklər müəllifi Sultan Məcid Qənizadə ilə yazışmaları diqqət çəkir. Filologiya elmləri doktoru, professor X.Məmmədov haqlı olaraq S.M.Qənizadənin ədəbi düşüncələrini, əsasən, qələm yoldaşlarına göndərdiyi məktublarında, kitablarına yazdığı müqəddimələrində bildirdiyini qeyd edir[1]. Bu baxımdan S.M.Qənizadənin Bakıdan M.T.Sidqiyə ünvanladığı məktub əhəmiyyətlidir. O, məktubunda özünəməxsus şəkildə dövrünün ədəbiyyatına münasibət bildirir, bədii əsərlərdə şablon mövzuların, təsvir və ifadə vasitələrinin ifrata vardığını, bunların zəmanənin tələbləri ilə uyğunlaşmadığını yazır.

Qeyd etdiyimiz kimi, yazıçıların ailə üzvlərinə, qohumlarına, dost və tanışlarına yazdığı məktublarının əksəriyyəti ədəbiyyat, sənət problemlərindən təcrid olunmuş formada deyildir. Məlum olduğu kimi, Ə.Haqverdiyevin dram əsərləri ölkəmizin sərhədlərindən kənarda da səhnələşdirilmiş və böyük müvəffəqiyyət qazanmışdır. Dramaturqun teatr fəaliyyəti ilə bağlı olan bu məktublar ilk dəfə olaraq transfoneliterasiya edilmiş və tədqiqata cəlb olunmuşdur.

Süleyman Sani Axundovun şəxsi arxivində saxlanılan məktubların bir qismi ədəbi məktublardır ki, burada əsərlərinin çap edilməsi yaxud səhnəyə qoyulması haqqında məlumat verilir. Müəllifə rus dilində göndərilmiş məktubda "Rəşid və Gövhər"in çap edilməsi, "Nurəddin" hekayəsinin isə nəşrə hazırlanması haqqında xəbər verilmişdir. Süleyman Sani Axundovun

---

[1]Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı: Yazıçı, 1983, s. 100.

arxivindəki məktubların birində onun ilk əsəri "Tamahkar" komediyasının səhnəyə qoyulması haqqında məlumat vardır. Məlum olduğu kimi, Süleyman Sani Axundov 1906-cı ildə məşhur türk yazıçısı Şəmsəddin bəy Saminin "Dəmirçi Gavə" faciəsini təbdil etmişdir. İsgəndər bəy Məlikovun 1911-ci ilin mart ayında yazıçıya ünvanladığı məktubda əsərin səhnələşdiriləcəyi yazılır. Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyev isə "Eşq və intiqam" faciəsi ilə bağlı Süleyman Saniyə məktub yazmış və səhnələşdirmək üçün əsərin ona göndərilməsini xahiş etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatında romanlar və maraqlı hekayələr müəllifi kimi şöhrət tapan yazıçılardan biri Yusif Vəzir Çəmənzəminlidir. Y.V.Çəmənzəminlinin arxivi Əlyazmalar İnstitutunda mühafizə olunan digər arxivlərdən öz səliqəsi və zənginliyi ilə seçilir. Sənətkarın şəxsi arxivində qorunan müxtəlif şəxslərə ünvanladığı və ya ona göndərilmiş məktubların bir qismi orijinal şəkildə, ayrı-ayrı saxlama vahidləri altında mühafizə olunur. Bunlara F.Köçərlinin, M.Abdullayevin, H.Vəzirovun və bir neçə digər şəxsin məktubları daxildir. Bir qisim məktubları isə Yusif Vəzir Çəmənzəminli 1907-ci ildən yazmağa başladığı gündəliyinə köçürmüşdür. Çəmənzəminliyə ünvanlanan məktublar içərisində tərcüməçi və maarifçi, Şuşadakı "rus-Azərbaycan" məktəbinin müdiri Haşım bəy Vəzirovun (1867-1916) məktubu ədəbiyyat və dilçilik baxımından xüsusi diqqət çəkir. "İrşad", "Tazə həyat", "İttifaq", "Səda", "Sədayi-vətən", "Sədayi-həqq" qəzetlərinin redaktoru və naşiri olmuş təcrübəli publisist H.Vəzirovun ilk dəfə tədqiqata cəlb olunan 9 avqust 1913-cü il tarixli məktubunu əminliklə ədəbi-tənqidi məqalə adlandırmaq mümkündür.

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixini araşdırmaq üçün böyük zəhmətə qatlaşan Salman Mümtazın şəxsi arxivindəki Azərbaycan dilində, ərəb əlifbası ilə yazılmış məktublardan biri Dərbənddən göndərilmişdir. İlk dəfə tədqiqata cəlb edilən bu məktub özündə bir çox maraqlı məqamları əks etdirir. Əhməd Əfəndizadə məktubunun əvvəlində S.Mümtazla etdiyi ədəbi söhbətləri, mübahisələri xatırlayır, Nizami Gəncəvinin "Xəmsə"sinin və Mirzə Məsihin "Divan"ının onda olması barədə xəbər verir. Qeyd etdiyimiz kimi, məktublarda yazıçıların müasirlərinə münasibəti, onların dostluq, ədəbi əlaqələri özünü ən səmimi formada büruzə verir. S.Mümtazın şəxsi arxivində Mikayıl Müşfiqlə bağlı maraqlı məktub vardır. Salman Mümtaz 1934-cü ildə Firdovsinin 1000 illik yubileyi ilə əlaqədar Moskva və Leninqradda təşkil edilən tədbirlərə dəvət edilmiş, gənc şair M.Müşfiqi də özü ilə aparmışdır. O, 5 iyun 1934-cü ildə İ.K.Yenikolopova göndərdiyi məktubunda bu haqda məlumat verir.

Cəfər Cabbarlının epistolyar irsi ədəbi məktubların zənginliyi baxımından fərqlənir. Dramaturqun şəxsi arxivində əsərlərinin tərcüməsi ilə bağlı onlarla məktuba rast gəlinir. Bunlardan biri Sabit Rəhmanın göndərdiyi məktubdur. C.Cabbarlının şəxsi arxivində "Sevil", "Od gəlini", "Almas", "Yaşar", "Aydın" əsərləri ilə bağlı müxtəlif məzmunlu məktublar vardır. Arxivdəki bəzi məktublar isə C.Cabbarlı yaradıcılığına olan oxucu rəğbətini əks etdirir. Ağabala Ağazadənin 8 aprel 1929-cu ildə Tiflisdən göndərdiyi, Bəylər Cahangirovun 12 iyul 1933-cü il tarixli məktubu Cəfər Cabbarlı yaradıcılığına, xüsusilə "Od gəlini" əsərinə olan oxucu vurğunluğunu ifadə edir.

Ədəbiyyat xadimlərinin ədəbi düçüncələrini, müasirləri haqqında fikirlərini bir çox məqamlarda ədəbi məktublarında bildirdiklərini qeyd etmişdik. A.Buzovnalının şəxsi arxivində bu cəhətdən böyük əhəmiyyət daşıyan məktub nümunələrinə rast gəlinir. Belə ki, Ağa Səlim Fədai yeni yazdığı şeirini və Füzulinin qəzəlinə etdiyi təxmisi məktub vasitəsi ilə A.Buzovnalıya göndərmiş, fikrini söyləməsini xahiş etmişdir.

Əli Razi Şamçızadə də həmçinin A.Buzovnalıya ünvanladığı 16 may 1927-ci il tarixli məktubunda müxtəlif məzmunda olan şeirlərini verir. O, iri həcmli məktubunda Əli Nəzmi, Nemət Bəsiri, Əliağa Vahid kimi sənətkarların adlarını çəkir, qeyd etdiyi şeirlərə münasibət bildirmələrini xahiş edir. Dissertasiyada ilk dəfə transfoneliterasiya olunaraq tədqiqata cəlb edilən bu şeirlər müəlliflərinin ədəbi irsinin araşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Ədəbi məktublar yazıçılar haqqında dəyərli məlumatları özlərində ehtiva edən qiymətli mənbələrdirlər. Göründüyü kimi, ədəbiyyat xadimlərinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivlərində mühafizə olunan məktubları onların həyat və yaradıcılıqlarının daha dərindən araşdırılması üçün faydalıdır.

**"Dövrün ictimai-siyasi, ədəbi mühitinin təsvirində məktubların əhəmiyyəti**" adlı sonuncu yarımfəsildə qeyd edilir ki, ədəbiyyat nümayəndələrinin həyat və yaradıcılığının, ədəbi əlaqələrinin, dövrün ictimai-siyasi, ədəbi mühitinə münasibətinin tədqiqində onların əsərləri ilə yanaşı, müxtəlif şəxslərə göndərdiyi və ya aldığı məktubların araşdırılması əhəmiyyətli faktların üzə çıxmasına kömək edir. Ədəbiyyat xadimləri öz məktublarında tarixi hadisələr, cəmiyyətin iqtisadi vəziyyəti, ictimai problemləri, elm və mədəniyyətin inkişaf səviyyəsi haqqında ətraflı yazmışdırlar. Məktublarda həmçinin dövrün iqtisadi durumu, ədəbi mühiti, ictimai-siyasi problemləri barədə məlumatlara rast gəlinir. Çünki məktublar aid olduqları dövrün hadisələri ilə üzvi surətdə bağlıdırlar. Akademik

İ.Həbibbəylinin qeyd etdiyi kimi, “Məktublar yazıçı və şairlərimizin ürək döyüntülərinin, qəlb çırpıntılarının, əzab və sevinclərinin güzgüsüdür. Bunlarsız ədəbiyyat tarixini yazmaq, bədii yaradıcılıq və ədəbi mühiti doğru-düzgün canlandırmaq əslində çox çətindir, bəlkə də düzgün deyildir. Sənətkarların şəxsiyyəti və ömrü, ədəbi-tarixi siması da məktublar olmadan, cansız, quru görünə bilər. Bir sözlə, yazıçı məktubları ədəbiyyat tarixinin əsas mənbələrindən biridir”[1].

Akademik Kamal Talıbzadə isə yazıçı məktublarının XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixində olan əhəmiyyəti haqqında yazır: “XIX əsrin sonu, XX əsrin əvvəllərində məktub artıq kütləvi təsir vasitəsinə çevrilmişdi: mədəni əlaqələrin genişlənməsində mühüm rol oynayır və sürətlə məişətə daxil olurdu”[2].

Dövrünün xüsusiyyətlərini ətraflı əks etdirməsi baxımından Həsən bəy Zərdabinin məktubları diqqət çəkir. Belə məktublaşmalar daha çox H.Zərdabi ilə onun tələbələri arasında olanlardır. O, məktəbdə çalışdığı müddətdə M.A.Pavlov, N.Vəzirov, Ə.Adıgözəlov kimi şəxsiyyətlər yetişdirmiş, qayğıkeş bir müəllim olaraq daim tələbələri ilə məktublaşmışdır. Nəcəf bəy Vəzirovun Peterburqda təhsil aldığı zamanlarda müəllimi H.Zərdabiyə yazdığı məktubu yazıçının tələbəlik illərinin əyani təsvirini vermək baxımından maraq doğurur. O, Həsən bəy Zərdabiyə göndərdiyi məktublarda yeni üsullarla uşaqlara yazıb-oxumaq öyrətməyin səmərəsini qeyd edir, bu üsulun nədən ibarət olması haqqında ətraflı məlumat verirdi. H.Zərdabinin arxivindəki məktubların bir çoxu XIX və XX əsrdə Şərq ölkələrinin elm və inkişafdan geri qalmış, dinin elmə qarşı qoyulmuş vəziyyətinin real faktiki sənədidir. H.Zərdabi Seyid Əzim Şirvani ilə də məktublaşmış, “Əkinçi” qəzeti barədə fikirlərini bölüşmüşdür.

XIX əsrin maarifçiləri M.F.Axundzadənin, H.Zərdabinin, S.Ə.Şirvaninin ədəbi epistolyar irsinin tədqiqi sayəsində bu dövrdə Azərbaycanın ictimai-siyasi vəziyyəti, çar hökumətinin müstəmləkə siyasəti nəticəsində ölkədə hökm sürən gerilik, mövhumat, yerli məmurların özbaşınalığının şahidi oluruq.

Məhəmməd Tağı Sidqinin S.M.Qənizadə ilə çoxsaylı yazışmaları vardır ki, bunlardan dövrün ədəbi, mədəni, pedaqoji mühiti haqqında ətraflı məlumat almaq mümkündür. Dövrünün iki pedaqoq və ədibi məktublarında elm və mədəniyyətlə bağlı fikirlərini bölüşmüşdürlər. Həmçinin

---

[1]Həbibbəyli İ. Rəşid bəy Əfəndiyevin iki məktubu. Ədəbiyyat qəzeti, Bakı, 1993, 29 oktyabr.

[2]Talıbzadə K. Firidun bəy Köçərlinin Abdulla Şaiqə məktubları. Ədəbiyyat qəzeti, Bakı, 2013, 27 sentyabr.

Məhəmməd Tağı Sidqi ilə Cəlil Məmmədquluzadə arasında olan yazışmalarda dövrün elm, təhsil, ədəbi mühitinin təsvirinə geniş yer verilmişdir. Cəlil Məmmədquluzadənin şəxsi arxivində mühafizə olunan məktubların bir neçəsi M.T.Sidqinin oğlu və bir müddət "Molla Nəsrəddin" jurnalının müvəqqəti redaktoru olmuş Məmmədəli Sidqi Səfərova yazılmışdır. Burada dövrün ictimai xüsusiyyətləri əks olunmuşdur.

Məlum olduğu kimi, XIX əsrin sonlarından başlayaraq əhalinin savadlanması üçün təşkil olunan məktəblərdə tədris olunacaq dərs vəsaitlərinə böyük ehtiyac var idi. Belə dərs vəsaitlərinin hazırlanması işində önəmli rola malik ziyalılardan biri məhz Rəşid bəy Əfəndiyev olmuşdur. R.Əfəndiyevin şəxsi arxivində onun "Nuxa fəhləsi" qəzetinə ünvanladığı məktubunda "Bəsirətül-ətfal", "Uşaq bağçası"adlı dərslikləri ilə bağlı maraqlı məlumatlar vardır. R.Əfəndiyevin şəxsi arxivindən ilk dəfə olaraq tədqiqata cəlb olunmuş Artur Rudolfoviçə göndərdiyi məktubunda onun pedaqoji və elmi fəaliyyəti barəsində ətraflı məlumat verilir. Azərbaycanda maarifçilik ideyalarının yayılmasında böyük rol oynamış Rəşid bəy Əfəndiyev öz dərin savadı, təcrübəsi ilə bir çox şəxslərə elm, maariflə bağlı müxtəlif məlumat və məsləhətlər vermişdir. Bu problemlər ilə əlaqədar bir neçə nəfər ona məktub göndərmişdir. R.Əfəndiyevin şəxsi arxivində yer alan, yazıçının Azərbaycan tarixi və etnoqrafiyasına dair yazdığı məqalələrinin müqəddəratı ilə maraqlandığı məktublar da diqqəti cəlb edir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi, mədəni, elmi mühiti ilə ətraflı tanışlıq üçün Y.V.Çəmənzəminlinin şəxsi arxivində yer alan ədəbi epistolyar irs əsaslı zəmin yaradır. Onun məktublarında təkcə Azərbaycanın deyil, hətta Aşqabaddakı təhsil sistemi, məktəblər haqqında məlumatlar yer almışdır. Y.V.Çəmənzəminlinin şəxsi arxivində Orucov qardaşları mətbəəsinin yazıçının 1913-cü ildə çap olunmuş "Həyat səhifələri" adlı kitabı ilə bağlı maraqlı məktubu vardır ki, ilk dəfə transfoneliterasiya edilərək tədqiqata cəlb olunmuşdur.

Ə.Müznibin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində şair Səbura ünvanlanmış bir necə mənzum məktub qorunub saxlanılır ki, burada dövrün ədəbi, ictimai mühitinin geniş təsviri verilmişdir. Bu məktublarda dövrün məşhur ədəbiyyat nümayəndələri olan Seyid Zərgər, Çakər, Əbdülxaliq Cənnəti və digərlərinin adı çəkilir. Qeyd edilən məktublar həmçinin struktur etibarilə də maraq doğurur. Belə ki, hər bir şeirin birinci misrasında müxtəlif bənzətmələrlə Səbura müraciət edilir, daha sonra fərqli mövzulara münasibət bildirilir.

Qeyd etdiyimiz kimi, yazıçıların ədəbi epistolyar irsində yalnız ədiblərin tərcümeyi-hallarına, yaradıcılıq fəaliyyətlərinə dair məlumatları

deyil, eyni zamanda, onların yaşadıqları dövrün ədəbi prosesinə, ictimai-siyasi hadisələrinə münasibətlərini görür, müəyyən səbəblərdən mətbuatda və ya əsərlərində demək istəyib, lakin deyə bilmədikləri mətləblərlə rastlaşırıq. Məktublar ədəbiyyat tarixinin araşdırılmasında olduğu kimi, yazıldığı dövrün dil-üslub xüsusiyyətlərini özündə əks etdirdiyi üçün də əhəmiyyət daşıyır. Aşkarlanan bütün bu maraqlı faktlar məktubların, həqiqətən, sənətkarların, ədəbiyyat xadimlərinin həyat və yaradıcılığının tədqiqində olan önəmli rolunu bir daha sübut edir.

Dissertasiyanın **Nəticə** hissəsində isə tədqiqat işi ilə bağlı əldə olunmuş müddəalar ümumiləşdilir. Qeyd edilir ki, epistolyar irs ədəbiyyat xadimlərinin həyatını, yaradıcılığını, ictimai fəaliyyətini, müasirləri ilə əlaqələrini araşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Ədəbi məktublarda yazıçıların həyatının müxtəlif tərəflərini aydınlaşdırmaq, onların daxili aləminə nüfuz etmək, dünyagörüşündə olan dəyişiklikləri, inkişafı görmək, əsərlərinin yaranmasına aparan yolu izləmək, anlamaq üçün çox dəyərli məlumatlar vardır. Ədəbiyyatçıların bir-birinə yazdıqları ədəbi məktublarda bir çox hallarda onların ədəbi problemlər haqqında düşüncələri verilir və ədəbiyyat tarixi, yazarların həyatı ilə maraqlanan şəxslər üçün bu məktublar faydalıdır. Digər tərəfdən isə yazıçı məktublarında dövrün ictimai-siyasi mənzərəsini, iqtisadi durumunu, ədəbi mühitini araşdırmaq üçün əhəmiyyətli məlumatlara rast gəlinir.

Tədqiqat nəticəsində müəyyənləşir ki, yazıçıların şəxsi arxivlərində saxlanılan ədəbi epistolyar irsin ədəbiyyat tariximizdə özünəməxsus yeri vardır. Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XIX-XX əsrlərdə yaşayıb-yaradan ədiblərin şəxsi arxivlərində mühafizə olunan ədəbi epistolyar irs onların yaradıcılıq planlarını, fəaliyyətlərini, keçirdikləri mənəvi böhranları, qazandıqları uğurları göstərməklə yanaşı, dövrün ictimai-siyasi ab-havası, sosial quruluşu, üsuli-idarəsi haqqında təsəvvür yaradır.

Tədqiqatda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda qorunan və bu günə qədər elmi araşdırmaya cəlb olunmayan bəzi məktublar aşkar edilmişdir. Yazıçıların epistolyar irsinin tədqiqi nəticəsində belə qənaətə gəlinmişdir ki, məktubların onların düşüncələrinin, ideyalarının, bütövlükdə dünyagörüşlərinin, yaşadıqları ictimai-tarixi şəraitin, aralarında olan şəxsi dostluq münasibətlərinin, qarşılıqlı mənəvi-əxlaqi təsirin ətraflı öyrənilməsində böyük əhəmiyyəti vardır.

Avtoqraf nüsxələrinin əksəriyyət təşkil etdiyi ədəbi epistolyar irs tarixi, faktiki material kimi realist yaradıcılıq nümunəsi olmaqla tədqiqatçı üçün yazıçının şəxsiyyətini, dünyagörüşünü, vətəndaşlıq mövqeyini, icti-

mai həyatdakı yerini dəqiq müəyyənləşdirmək fürsəti yaradır. Tədqiq etdiyimiz elmi ədəbiyyat və zəngin arxiv materialları imkan verir ki, yazıçı yaradıcılığının xüsusi növünü təşkil edən epistolyar irsin ümumilikdə ədəbiyyatımızın inkişaf xəttini işıqlandıran nəzəri və praktik əhəmiyyətə malik olduğunu qeyd edək. Aparılan araşdırma nəticəsində qeyd etmək mümkündür ki, yazıçıların AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivlərində qorunan ədəbi epistolyar irsin tədqiqinin XIX-XX yüzilliklərdə Azərbaycan ədəbiyyatı tarixinin inkişaf istiqamətlərinin, problematikasının, mövzu, ideya qaynaqlarının aydınlaşdırılmasında müstəsna əhəmiyyəti vardır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**


1. Süleyman Sani Axundova gələn məktublar // "Azərbaycan" jurnalı, 2014, № 9, s. 196-200.
2. Süleyman Sani Axundovun epistolyar irsi / Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 75 illiyinə həsr olunmuş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı şəhəri, 10-11 oktyabr 2014-cü il. Bakı: s. 271-275.
3. Rəşid bəy Əfəndiyevin şəxsi arxivində saxlanılan məktublar // "Əlyazmalar yanmır" jurnalı, 2015, №1, s. 61-65.
4. Türk ədəbiyyatında məktublar (Nazim Hikmətin məktubları əsasında) / "Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı şəhəri, 1-2 dekabr 2015-ci il. Bakı: s. 189-193.
5. Cəlil Məmmədquluzadənin epistolyar irsi // "Əlyazmalar yanmır" jurnalı, 2016, №1, s. 61-66.
6. Ədəbi irsin toplanmasında Salman Mümtazın rolu / "Kitabi-Dədə Qouqud"un elm aləminə məlum olmasının 200 illiyinə həsr olunmuş "Epos və etnos" Beynəlxalq simpozium materialları. Bakı şəhəri, 6-7 noyabr 2016-cı il. Bakı: s. 84-90.
7. Ədəbi əlaqələrin yaranmasında məktubların rolu // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnalı, 2016, № 1, s. 253-255.
8. Cəlil Məmmədquluzadənin məktubları və "Molla Nəsrəddin" jurnalı / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş "Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı" materialları. Bakı şəhəri, 29-30 aprel 2016-cı il. Bakı: s. 1083-1085.
9. Ədəbi məktub nümunələrində yazıçı yaradıcılığının əksi // Azərbaycan Milli Elmlər Akademiyasının "Xəbərlər"i. Humanitar elmlər seriyası, 2016, №1, s. 133-139.
10. Ədəbi məktublarda Səməd Vurğun yaradıcılığının əksi // "Ədəbiyyat məcmuəsi" jurnalı, 2016, XXVII cild, s. 198-206.

11. Значение писем в исследовании творчества писателя // Вестник Казахского Национального Университета имени Аль-Фараби. 2016, №3, с. 43-47.
12. Cəfər Cabbarlının arxivindən məktublar // “Azərbaycan” jurnalı, 2016, №7, s. 187-190.
13. Azərbaycan ədəbiyyatında məktublaşma ənənəsi // İnternational journal of young researchers. Pdf, 2016, s. 38-42.
14. Epistolyar irs ədəbi təfəkkürün ifadə qəlibi kimi // “Ədəbiyyat məcmuəsi” jurnalı, 2016, XXVIII cild, s. 247-255.
15. Yusif Vəzir Çəmənzəminlinin epistolyar irsi barədə / “Müqayisəli ədəbiyyatşünaslığın aktual problemləri” mövzusunda elmi-nəzəri konfransın materialları. Bakı şəhəri, 4 aprel 2017- ci il, Bakı: s. 168-172.
16. M.P.Vaqif yaradıcılığında mənzum məktublaşma ənənəsi / “Molla Pənah Vaqif və folklor” mövzusunda elmi konfransın materialları. Bakı şəhəri, 21 iyun 2017-ci il, Bakı: s. 98-105.
17. Qulam Məmmədli arxivində qorunan məktublar / Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda Beynəlxalq elmi konfransın tezisləri. Bakı şəhəri, 16-17 oktyabr 2017-ci il, Bakı: s. 86-87.

**Айтен Алескер кызы Кулиева**

## Литературное эпистолярное наследие в частных архивах

## РЕЗЮМЕ

В исследовательской работе разбирается литературное эпистолярное наследие выдающихся азербайджанских писателей и просветителей конца XIX- начала XX веков, сохранившееся в личных архивах Института Рукописей имени Мухаммеда Физули НАНА. Из 20 личных фондов, привлеченных к исследованию, были собраны и систематизированы письма, касающиеся истории литературы и литературных проблем, были определены их характерные особенности, тематические направления, разносторонне проанализированы с точки зрения литературоведения. Некоторые письма из этих фондов, остававшиеся до настоящего времени в виде рукописей, были подвергнуты трансфонелитерации или же переведены с русского языка и привлечены к исследовательской работе.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении раскрыты актуальность темы, степень исследования, объект и предмет, новаторство работы, цель и задачи, методологические основы и практическая значимость.

В первой главе "Формирование эпистолярного наследия в литературе и первоисточники" основное внимание уделяется истории развития эпистолярографии. Здесь говорится о первых источниках эпистолярного наследия в истории мировой и азербайджанской литературы, их значимости.

Во второй главе "Личные архивы и эпистолярные образцы" прослеживается история исследования и издания писем, вошедших в личный фонд писателей. Основные направления тематики эпистолярного наследия, хранившиеся в личных фондах, определяются на основе конкретных образцов писем.

В последней главе "Эпистолярное наследие из личных архивов как ценный источник" говорится о значимости писем в жизни и социальной деятельности литературных деятелей, в изучении их творческих связей, литературной, культурной, политической среды эпохи.

В заключительной части исследовательской работы отражены научные заключения, полученные в результате решения поставленной проблемы.

***Ayten Alasgar gizi Guliyeva***

**The literary epistolary heritage in the personal archives**

## SUMMARY

In the dissertation work is researched the epistolary heritage of the eminent Azerbaijani writers, enlighteners lived at the end of the 19th century and early the 20th century preserved in the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. The letters about the history of literature and literary questions found among the 20 personal archives are systematized, their characteristic features and directions of topics are defined and comprehensively analyzed from the standpoint of literary criticism. Some letters from these personal archives which have not been researched up to now, are transphoneliterated or translated from Russian and drawn into the research work.

The dissertation work consists of the introduction, three chapters, conclusion and the literary sources.

The topicality of the subject, the level of its research, the object and the subject, the scientific innovation, the aims and purposes, the methodological principles and the practical significance of the research work are studied in the introduction part of the dissertation.

In the first chapter named "The formation of the epistolary heritage in literature and its preliminary sources" is looked through the history of the development of epistolography. Here are dealt with the preliminary sources of the epistolary heritage in the history of the world and the Azerbaijani literature and their significance.

The second chapter "Personal archives and epistolary samples" speaks of the history of the research and publication of the letters found in the writers' personal archives. The directions of the main topics of the epistolary heritage preserved in the personal archives are defined on the basis of the samples of specific letters.

The last chapter is named "The epistolary heritage preserved in the personal archives as a valuable source". It deals with the significance of the letters in researching the lives and activities of the literary men, their creative relationships, as well in studying the literary, cultural and political environment of that period.

In the conclusion of the dissertation work are shown the scientific opinions expressed in the direction of solving the mentioned problem.

Kağız formatı:60/84  16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**АЙТЕН АЛЕСКЕР кызы КУЛИЕВА**

# ЛИТЕРАТУРНОЕ ЭПИСТОЛЯРНОЕ НАСЛЕДИЕ В ЧАСТНЫХ АРХИВАХ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**БАКУ – 2017**